# Paşinyan daha bir generalı həbsə göndərdi

## Ermənistan silahlı qüvvələrində böyük problemlər qeydə alınmaqdadır

Hazırda məğlub Ermənistan böyük problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir.

Ekspertlərin fikrincə, indiki vəziyyət tamamilə iflasa uğrayan Ermənistan üçün daha faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən Hayastanda ümumi daxili məhsulun (ÜDM) artımı bu durumda mümkün olmayacaq. Əksinə, sözügedən sahədə tənəzzül olması və böyük geriləmənin yaşanması tamamilə gözləniləndir.

Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dolların və digər xarici valyutaların qiyməti bundan sonra da artacaq. Elə bu səbəbdən ölkədə zəruri ərzaq mallarının qiyməti getdikcə qalxır. Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları çox azdır. Xaricdən, xüsusən də Rusiyadan köçürülən pulların miqdarının azalması isə daha böyük iqtisadi problemlərə yol açır.

Bütün bunların nəticəsidir ki, ölkədə ictimai gərginlik azalmır. Hökumətə qarşı keçirilən etirzlara dəstək verənlərin sayının artması isə iqtidar üçün təhlükə yaradır. Sosial problemlər fonunda təşkil edilən aksiyalarda siyasi tələblər irəli sürülür, hakimiyyət istefaya çağırılır. Ümidini üzənlər isə çıxış yolunu ölkəni tərk etməkdə görürlər.

Hadisələrin bu səpkidə inkişaf etdiyi bir vaxtda keçmiş hərbi xunta təmsilçilərinin həbs dalğası davam etməkdədir. Ermənistan silahlı qüvvələri baş qərargah rəisinin keçmiş müavini İkinci Qarabağ savaşında səhlənkarlıqda suçlanaraq həbs olunub. Yerli medianın yazdığına görə, Tiran Xaçatryan 2020-ci ildə Ermənistanla Azərbaycan arasındakı 44 günlük savaş zamanı xidməti vəzifələrini yerinə yetirməyib. İttihamlara görə, Xaçatryanın gərəkli müdafiə xətləri təşkil etməməsi Azərbaycan qoşunlarına strateji uğurlar qazandırıb.

`Xaçatryan ittihamları rədd edib, onun vəkilləri isə generala qarşı ittihamları "əsassız" adlandıraraq apellyasiya məhkəməsinə üz tutacaqlarını bildiriblər. Onların iddialarına görə, keçmiş yüksəkrütbəli hərbçidən siyasi baxışlarına görə qisas almaq istəyirlər.

Rəsmi İrəvanın hərbi uğursuzluqlarından sonra ordu sahəsindəki həbsləri baş nazir Nikol



Paşinyanla hərbi dairələr arasında münasibətləri gərginləşdirib və Paşinyana ölkədaxili basqıları artırıb. Xaçatryan 2020-ci ildə Azərbaycanla müharibədən sonra "Ermənistanın Milli Qəhrəmanı" adına layiq görülsə də, daha sonra onunla hakimiyyət arasında gərginlik yaranıb.

2021-ci ilin fevralında Paşinyan Xaçatryanı silahlı qüvvələrin baş qərargah rəisinin müavini vəzifəsindən azad edib. Bir gün sonra Xaçatryan da aralarında olmaqla 40-dan çox yüksəkrütbəli hərbçi baş nazirin və onun hökumətinin istefasını tələb edib. Bu addımı qınayan Paşinyan onu dövlət çevrilişi cəhdinin bir elementi kimi qiymətləndirib. 2024-cü ilin yanvarında restoranların birində mübahisə zamanı tüfənglə atəş açdığı üçün Xaçatryan iki ay müddətinə həbs edilib. Prokuror generalı masasının yanında duran şəxsi yaralamaqda günahlandırıb, Xaçatryan isə özünü qorumaq üçün havaya atəş açdığını deyib.

Bütün bunlarla yanaşı, Ermənistanda silahlı qüvvələrdə böyük problemlər qeydə alınmaqdadır. Müharibədən sonra məğlub ölkənin ordusu istər döyüş qabiliyyəti, istərsə də təminat baxımından çox ciddi çətinliklər yaşayır. Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı da sürətlə pisləşməkdə davam edir. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması yenə adi hal alıb.

Ordudan yayınanların sayının artması bu xüsusda qaldırılan cinayət işlərinin də sayını çoxaldır. Artıq bu vəziyyət hökuməti də ciddi narahat edir. Qeyd olunur ki, hazırda 27-35 yaş arası 5000-dən çox vətəndaş orduda xidmətdən yayındıqlarına görə axtarışdadır. Hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 8 yanvar (№2).- S.13.